**Azərbaycan Respublikasında peyk vasitəsilə Yerin məsafədən müşahidəsi xidmətlərinin inkişafına dair əməkdaşlıq haqqında**

## ANLAŞMA MEMORANDUMU

### Maddə 1. Anlaşma Memorandumunun Tərəfləri

Bundan sonra "Virtual Azərbaycan Qrup of Kompani" MMC ("Virtual Azərbaycan") və Azərkosmos aşağıdakılar barədə bu Anlaşma Memorandumunu bağlayırlar:

### Maddə 2. Anlaşma Memorandumunun predmeti

2.1. Bu Anlaşma Memorandumu "Azərkosmos"un peyk müşahidəsi, məsafədən zondlama, Coğrafi İnformasiya Sistemləri habelə digər növ peyk xidmətləri sahəsində malik olduğu müasir bilik və təcrübə ilə "Virtual Azərbaycan" şirkətinin təqdim etdiyi proseslərin avtomatlaşdırılması, proqram təminatlarının tətbiqi, habelə su sistemlərinin idarəedilməsinin avtomatlaşdırılması sahəsindəki xidmətlərindən bəhrələnərək müştərək layihələrin icrasında və iqtisadiyyatın müxtəlif sahələrinin inkişafına töhfə verilməsi məqsədilə Azərkosmos ilə Virtual Azərbaycan arasında qarşılıqlı əməkdaşlıq münasibətlərini müəyyən edir.

2.2. Birlikdə yerinə yetirilən işlərin əlaqələndirilməsini və Anlaşma Memorandumuna müvafiq olaraq görülən işlərə nəzarəti, "Virtual Azərbaycan"ın direktoru tərəfindən təyin edilən və "Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)" Publik Hüquqi Şəxsin İdarə Heyətinin sədri tərəfindən təyin edilən səlahiyyətli nümayəndələr həyata keçirirlər.

### Maddə 3. Tərəflərin fəaliyyət istiqamətləri

Bu Anlaşma Memorandumu çərçivəsində "Virtual Azərbaycan" və "Azərkosmos"un əməkdaşlığı aşağıda göstərilən fəaliyyət növlərini əhatə edir:

3.1. Su qaynaqlarının peyk vasitəsilə təyini, yerüstü aparatlar vasitəsilə məlumatların data analitikası, yeraltı su qaynaqlarının doğru şəkildə istismarı, torpağın eroziyasını öncədən təyin etmə məsələləri;

3.2. Azərkosmosun mövcud peyklərindən istifadə edərək məlumatların emalı, proseslərin avtomatlaşdırılması sahəsində, həmçinin proqram təminatlarının tətbiqi üzrə layihələrin formalaşdırılması;

3.3. Mövcud su yataqlarının, müasir texnologiyalar vasitəsilə, həmçinin peyk məlumatlarından və meteoroloji stansiyalardan istifadə olunaraq əldə ediləcək ortaq meyarlar və Hidrologiya, Geologiya, Geofizika elmlərinin əsaslarını nəzərə alaraq, "Süni intellekt"ə öyrədib, bu meyarlar əsasında yeni su yataqlarının tədqiqatını apararaq proqnoz edilməsi;

3.4. Su sistemlərinin avtomatlaşdırılması üzrə beynəlxalq təcrübənin araşdırılması, peyk təsvirlərinin imkanlarından daha geniş istifadə üçün nəzərdə tutulan ixtisaslaşmış informasiyanı emal və təhlil edən informasiya sistemlərinin (tematik emal sistemləri – TES) qurulmasında iştirak və bu sahədə mütəxəssislərin hazırlanması;

3.5. "Elektron Su Təsərrüfatı İnformasiya Sistemi" (ESTİS) – Su Ehtiyatlarının ağıllı idarəedilməsi sistemi vasitəsilə təhlil və emalının araşdırılması, həmçinin Elektron Hökumət data mərkəzlərinə inteqrasiyasının təşkili;

3.6. Tematik təlimlərin və seminarların təşkili;

### Maddə 4. Əməkdaşlığın təşkili və birgə əməkdaşlıq tədbirləri

Tərəflərin səlahiyyətli nümayəndələri zərurət yarandığı təqdirdə, bu Anlaşma Memorandumunda nəzərdə tutulmuş fəaliyyət istiqamətlərinin əlaqələndirilməsi, işçi planların, gələcək əməkdaşlıq üzrə tövsiyələrin və proqramların hazırlanması məqsədilə, həmçinin bu

Anlaşma Memorandumu çərçivəsində əməkdaşlığın yekunlarına dair işçi görüşlər keçirə bilərlər.

Tərəflər öz işlərinə, hər bir qurumdan əlavə bu Anlaşma Memorandumunun 3-cü maddəsi ilə müəyyən edilmiş sahələr üzrə böyük təcrübəyə malik olan beynəlxalq təşkilatları, qurumları cəlb edə bilərlər.

**Maddə 5. Tərəflərin vəzifələri**

5.1. Anlaşma Memorandumunun məqsədlərinə nail olunması üçün Tərəflər öhdələrinə götürürlər:

5.1.1. Qarşılıqlı maraq əsasında onların sərəncamlarında olan və açıqlanması mümkün informasiyaları mübadilə etmək;

5.1.2. Bu Anlaşma Memorandumu çərçivəsində layihələrin reallaşdırılmasında iştiraka yüksək ixtisaslı mütəxəssislərin cəlb edilməsini təmin etmək;

5.1.3. Birgə tədqiqat xarakterli layihələri yerinə yetirmək;

5.1.4. Bu Anlaşma Memorandumu çərçivəsində Tərəflərin təşəbbüsü ilə ötürülən müxtəlif material və texnologiyalarla bağlı qarşı Tərəfin müəyyən etdiyi dərəcədə konfidensiallığı təmin etmək;

5.1.5. Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə başqa cür müəyyən edilməmişdirsə və ya belə konfidensial məlumat və texnologiyanın açıqlanmasına məlumatı təqdim edən Tərəf yazılı razılıq vermirsə, bütün alınmış məlumat, texnologiya və texniki işlə bağlı layihələrin üçüncü tərəflərə açıqlanmayacağına dair zəmanət vermək.

**Maddə 6. Maliyyələşdirmə mənbələri**

Memorandumun 3-cü maddəsində adları çəkilən fəaliyyət növlərinin maliyyələşdirilməsi qanunvericiliklə qadağan olunmayan vəsaitlər hesabına həyata keçirilir.

**Maddə 7. Yekun müddəalar**

7.1. Əməkdaşlıq çərçivəsində əldə olunan istifadəsi məhdud material və informasiyaların mübadiləsi "Virtual Azərbaycan" və "Azərkosmos" tərəfindən "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun və digər qanunvericilik aktlarının tələblərinə uyğun olaraq qorunmalıdır.

7.2. Bu Anlaşma Memorandumuna Azərbaycan Respublikasının qanunvericiliyi tətbiq edilir. Bu Anlaşma Memorandumunun icrası zamanı yarana biləcək bütün məsələlərin həlli "Virtual Azərbaycan" və "Azərkosmos" tərəfindən müvafiq qaydada, o cümlədən onların təyin etdiyi nümayəndələr vasitəsi ilə əlavə danışıqlar və məsləhətləşmələr yolu ilə həll edilir.

7.3. Bu Anlaşma Memorandumu imzalandığı tarixdən qeyri-müəyyən müddətə bağlanır. "Virtual Azərbaycan" və ya "Azərkosmos" 30 gün əvvəlcədən bildiriş təqdim etməklə bu Anlaşma Memorandumuna xitam verə bilər.

7.4. Bu Anlaşma Memorandumuna hər hansı bir dəyişiklik və ya əlavə "Virtual Azərbaycan" və "Azərkosmos"un qarşılıqlı razılığı əsasında edilə bilər.

7.5. Bu Anlaşma Memorandumu "28" iyun 2021-ci il tarixində, iki əsl nüsxədə imzalanır, bir nüsxəsi "Virtual Azərbaycan"da, digər nüsxəsi isə "Azərkosmos"da saxlanılır.

| | |
|---|---|
| **"Virtual Azərbaycan Qrup of Kompani" MMC-nin Baş direktoru** | **"Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)" Publik Hüquqi Şəxsin İdarə Heyətinin sədri** |
| **Elvin Abbasov** | **Saməddin Əsədov** |